**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin 27 yanvar 2026-cı il tarixli 3-24-18/3-1-f-18/2026 nömrəli əmri ilə təsdiq edilmişdir.**

**əlavə 1**

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən mədəniyyət müəssisələrində bir sıra rəhbər və ümumi vəzifələrə işə qəbul üzrə müvəqqəti**
**Qaydalar**

## 1. Ümumi müddəalar

1.1. “Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sistemindəki müəssisələrdə bir sıra rəhbər və ümumi vəzifələrə işə qəbul üzrə müvəqqəti Qaydalar” (bundan sonra – Qaydalar) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kollegiyasının 15 noyabr 2005-ci il tarixli 24-2 nömrəli qərarı ilə təsdiq edilmiş “Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”na, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kollegiyasının 17 noyabr 2011-ci il tarixli 3-1 №-li qərarı ilə təsdiq edilmiş “Mədəni-maarif müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”na, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin Əsasnaməsinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kollegiyasının 02 iyun 2008-ci il tarixli 4-2 №-li qərarı ilə təsdiq edilmiş “Mədəni-maarif müəssisələrində "Teatr, konsert, sirk müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na digər normativ və hüquqi aktlara əsasən hazırlanmışdır.

1.2. Mədəniyyət müəssisələrinə (bundan sonra - müəssisələr) işə qəbulun aparılması Nazirlik tərəfindən müsabiqə yolu ilə həyata keçirilir.

1.3. İşçilərin əməyinin stimullaşdırılması məqsədilə müəssisə daxilində daha yüksək vəzifəyə təyin olunması, intizam tənbeh tədbirlərinin tətbiq edilməsi ilə əlaqədar və ya işçilərin öz istəyi ilə aşağı vəzifəyə keçirilməsi, həmçinin rəhbər vəzifələrdə çalışan şəxslərin işdən azad olunması zamanı onların ixtisasına uyğun digər vəzifəyə keçirilməsi müsabiqədənkənar həyata keçirilə bilər.

1.4. Yaşayış yerinin dəyişdirilməsi, müəssisənin ləğvi, ştatların ixtisarı və s. üzrlü hallarda işçinin müvafiq müəssisədə əvvəlki vəzifəsinə uyğun işlə təmin edilməsi müsabiqədənkənar həyata keçirilə bilər.

1.5. Bu Qaydalar Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində olan müəssisələrdə aşağıdakı vəzifələr üzrə işə qəbul məsələlərini tənzimləyir:

1.5.1. şöbə müdiri, direktorun uşaqlara xidmət üzrə müavini
1.5.2. kitabxana filialının müdiri
1.5.3. kitabxanada şöbə müdiri
1.5.4. oxu zalının müdiri
1.5.5. kitabxanada bölmə müdiri
1.5.6. baş kitabxanaçı
1.5.7. böyük kitabxanaçı
1.5.8. kitabxanaçı
1.5.9. multimedia resursları üzrə mütəxəssis
1.5.10. multimedia mütəxəssisi
1.5.11. kitabxanaçı-informasiya texnologiyaları üzrə mütəxəssis
1.5.12. informasiya texnologiyaları üzrə mütəxəssis
1.5.13. baş biblioqraf

1.5.14. böyük biblioqraf
1.5.15. biblioqraf
1.5.16. redaktor
1.5.17. proqramçı
1.5.18. sistem inzibatçısı
1.5.19. klub müdiri
1.5.20. mədəniyyət evinin direktoru
1.5.21. mədəniyyət evinin bədii rəhbəri
1.5.22. bədii rəhbər-rejissor
1.5.23. baş metodist
1.5.24. böyük metodist
1.5.25. metodist
1.5.26. mədəni təşkilatçı
1.5.27. mədəni-kütləvi tədbirlər üzrə təşkilatçı
1.5.28. fond mühafizəçisi
1.5.29. ekskursiyaçı
1.5.30. baş elmi işçi
1.5.31. kiçik elmi işçi
1.5.32. kadr və kargüzarlıq işləri üzrə aparıcı mütəxəssis
1.5.33. kadrlar üzrə mütəxəssis
1.5.34. tərtibatçı rəssam
1.5.35. bərpaçı rəssam
1.5.36. mütəxəssis
1.5.37. xalq teatrının rejissoru
1.5.38. xalq teatrının rəssamı
1.6. Bu Qaydaların 1.5.1-1.5.38-ci yarımbəndlərində nəzərdə tutulmuş vəzifələr üzrə işə qəbul müsahibə yolu ilə Qaydaların 4-cü hissəsində müəyyən edilmiş qaydada həyata keçirilir. Müsahibənin vaxtı Nazirlik tərəfindən müəyyənləşdirilərək elan edilir. Hər bir müsahibənin keçirilməsi məqsədilə Nazirlik tərəfindən müvafiq komissiya yaradılır.

## 2. İşə qəbul üçün tələblər

2.1. Bu Qaydalara uyğun olaraq işə qəbul olunmaq üçün müraciət etmiş namizədlər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kollegiyasının 17 noyabr 2011-ci il tarixli 3-1 №-li qərarı ilə təsdiq edilmiş "Mədəni-maarif müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2 iyun 2008-ci il tarixli 4-2 №-li qərarı ilə təsdiq edilmiş "Teatr, konsert, sirk müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kollegiyasının 15 noyabr 2005-ci il tarixli 24-2 №-li qərarı ilə təsdiq edilmiş "Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda müvafiq vəzifə üzrə müəyyən edilmiş tələblərə cavab verməlidirlər.
2.2. Müsabiqədə ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom), yaxud ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında sənəd (arayış) almış, xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.
2.3. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar aşağıda göstərilən sənədləri Nazirliyə təqdim etməlidirlər:
2.3.1. şəxsiyyət vəsiqəsinin surəti;
2.3.2. dövlət nümunəli təhsil sənədinin (diplomun) və ya ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında sənədin (arayışın) surəti;
2.3.3. əmək kitabçasının surəti (zərurət olarsa).
2.3.4. 2 ədəd 3x4 sm ölçüdə fotoşəkil.

2.4. Namizədlər tərəfindən təqdim edilmiş şəxsi məlumatların qorunması və məxfiliyi qanunvericiliyə uyğun təmin edilir.
2.5. Namizədlərin müvafiq vakant vəzifəyə uyğunluğu Nazirlik tərəfindən təsdiq edilmiş vəzifə təlimatlarına uyğun müəyyənləşdirilir.

## 3. Müsabiqənin təşkili

3.1. Müsabiqədə iştirak etmək üçün müraciətlər müsabiqə elan edildiyi gündən etibarən 20 təqvim günü ərzində Nazirlik tərəfindən qəbul edilir.
3.2. Müsabiqə haqqında elan Nazirliyin internet səhifəsinə (nculture.gov.az) və digər internet resurslarında yerləşdirilir.
3.3. Müəssisələrdə yaranan vakant yerlər haqqında məlumatı müəssisə rəhbərliyi tabelik üzrə regional mədəniyyət idarəsinə, regional mədəniyyət idarəsinin rəhbərliyi və bilavasitə Nazirliyə tabe olan mədəniyyət müəssisələri isə Nazirliyə təqdim edir.
3.4. Müsabiqənin birinci mərhələsində sənədlərin qəbulu həyata keçirilir. Namizəd haqqında məlumatların müsabiqənin şərtlərinə uyğunluğu Nazirlik tərəfindən araşdırılır və tələblərə cavab verən namizədlərin müraciətləri qəbul edilir.
3.5. Müsahibənin keçirilməsi üçün Nazirlikdən 2, muxtar respublikada fəaliyyət göstərən mədəniyyət sahəsi üzrə ali təhsilli mütəxəssislərdən müstəqil ekspert qismində 3 nəfər olmaqla cəmi 5 üzvdən ibarət müsahibə komissiyası yaradılır. Müsahibə komissiyasının tərkibi Nazirlik tərəfindən təsdiq edilir.
3.6. Müsahibə komissiyasının üzvü namizədlə qohumluq, işgüzar asılılıq və ya digər şəxsi maraq əlaqəsi olduqda həmin namizədin müsahibəsinin keçirilməsində iştirak edə bilməz.
3.7. Müsahibə komissiyasının üzvləri obyektivlik, qərəzsizlik və bərabərlik prinsiplərinə riayət etməli, namizədlərə qarşı ayrı-seçkiliyə yol verməməlidirlər.

## 4. Müsabiqənin keçirilməsi

4.1. Bu Qaydaların 1.2-ci bəndində nəzərdə tutulmuş qaydada müvafiq vəzifələr üzrə işə qəbul şəffaflıq və obyektivlik təmin edilməklə mərkəzləşdirilmiş qaydada iki mərhələdən ibarət olmaqla (sənədlərin qəbulu və müsahibə) həyata keçirilir.
4.2. Müsabiqənin birinci mərhələsində namizədlərin təqdim etdiyi sənədlər əsasında məlumatların iddia olunan vəzifəyə uyğunluğu yoxlanılır. Müraciətdə qeyd edilən məlumatların düzgünlüyünə görə namizəd məsuliyyət daşıyır.
4.3.Müəssisələrdə müvafiq vəzifələr üzrə mövcud olan vakansiyalar mütəmadi olaraq Nazirliyin saytında müsabiqə başlamazdan əvvəl elan edilir.
4.4. Müsabiqənin ikinci mərhələsində 20 dəqiqə ərzində namizədlərin peşəkarlıq qabiliyyətləri, şəxsi keyfiyyətləri və ümumi dünyagörüşü müsahibə proqramına uyğun olaraq komissiya tərəfindən yoxlanılır.
4.5. Şəffaflığın təmin edilməsi məqsədilə müsahibə prosesi audio və ya video qeydə alınır.
4.6. Müsahibəyə üzrlü səbəb olmadan gəlməyən namizəd müsabiqədə iştirakdan imtina etmiş hesab olunur.
4.7. Komissiya müsahibə zamanı namizədləri müvafiq meyarlar əsasında 5 ballıq sistem əsasında qiymətləndirir, hər bir namizəd üçün ümumi bal çıxarır və nəticələri “Namizədin qiymətləndirilməsinə dair bal cədvəli” ilə rəsmiləşdirir (1 nömrəli əlavə).
4.8. Namizədlər meyarlar üzrə ortalama 3 bal topladıqda bu mərhələni uğurla keçmiş sayılır.
4.9. Müsahibə mərhələsinin nəticəsinə əsasən keçid balını toplamış bir neçə namizəd olduqda ən yüksək nəticə göstərmiş namizəd, ali və orta ixtisas təhsilli namizədlər tərəfindən müsahibə mərhələsində eyni bal toplandıqda, ali təhsilli namizədə, namizədlərin hamısı ali təhsilli və ya orta ixtisas təhsilli olduqda təhsil müəssisəsini fərqlənmə ilə bitirənlərə üstünlük verilir.
4.10. Keçid balını toplayan digər namizədlərə onların nəticələrinə və ixtisaslarına uyğun olaraq digər müəssisələrdə müsabiqə üçün müraciət etdikləri vəzifə üzrə vakant vəzifə təklif oluna bilər.

4.11. Müsabiqənin nəticəsinə görə müsahibədən keçid balını toplamış, lakin təyinat almayan namizədlər ehtiyat kadrlar siyahısına daxil edilir. Ehtiyat kadr statusunda qalma müddəti bir ildir. Ehtiyat kadrlar siyahısına daxil edilmiş namizədlər müəyyən olunmuş müddət ərzində yaranmış müsabiqə üçün müraciət etdikləri vəzifə üzrə vakant yerlərə yerləşdirilə bilərlər.
4.12. Ehtiyat kadrlar siyahısı Nazirlik tərəfindən reyestr şəklində aparılır.
4.13. Müsahibənin yekun nəticələri “Namizədin qiymətləndirilməsinə dair yekun protokol”la rəsmiləşdirilir (2 nömrəli əlavə).
4.14.Nəticəsindən narazı qalan namizəd 3 gün ərzində Nazirliyə elektron (apellyasiya@nculture.gov.az) və ya yazılı apellyasiya şikayəti verə bilər.
4.15.Apelyasiya şikayətlərinə Nazirliyin əmri ilə yaradılmış apellyasiya komissiyası tərəfindən baxılır. Şikayətlərə müsabiqə başa çatdıqdan sonra 1 (bir) həftə ərzində baxılaraq müvafiq qərar verilir.
4.16. Müsabiqənin nəticələrinə əsasən müvəffəqiyyət qazanmış namizədlərin siyahısı işə qəbul edilməsi üçün müşayiətedici məktubla Nazirlik tərəfindən müəssisələrə göndərilir.
4.17. İşə qəbul edilən şəxslər üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müddətli və ya müddətsiz əmək müqaviləsi bağlanıla bilər.
4.18. Müsabiqənin nəticəsi barədə məlumat müsahibənin keçirildiyi gündən 1 (bir) iş günü müddətində Nazirliyin rəsmi səhifəsində (nculture.gov.az) paylaşılır.

## 5. Qaydaların pozulmasına görə məsuliyyət

Bu Qaydalara riayət edilməsi və kadrlarla iş sahəsində yol verilən nöqsanlara görə müvafiq vəzifəli şəxslər, habelə komissiya üzvləri qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar.